DOI:10.30546/gdu.2023.307-311

*TƏLİM-TƏRBİYƏNİN NƏZƏRİYYƏSİ*

**UOT:730.**

# AZƏRBAYCANDA HEYKƏLTƏRAŞLIQ SƏNƏTİNİN TƏŞƏKKÜLÜ

***Allahverdiyeva Raziyyə Qiyas qızı***
***Gəncə Dövlət Universiteti***

**Xülasə:** *Azərbaycan heykəltəraşlığı indi yeni xüsusiyyətlərə malik, müxtəlif sahələri əhatə edən, müxtəlif istiqamətli yaradıcılıq növü olan bir sənət məktəbidir. Bu məktəb əsasən Sovet hakimiyyəti illərində yetginləşsə də, onun yaranmasını milli adətlərimizdən, xalq ənənələrindən ayrı təsəvvür etmək olmaz. O, daim Azərbaycan el sənətindən qidalanmış, dekorativ sənətimizlə daş, ağac və dəmir üzərində əsərlərdən bəri yaranmış ornament sənətimizin zəngin irsi ilə sıx əlaqədə inkişaf etmişdir.*

**Açar sözlər**: heykəltaraşlıq, plastika, monumental, abidə
**Ключевые слова:** скульптура , пластик, монументальный, памятник
**Key words**: sculpture, plastic, monumental, memorial

Azərbaycanın heykəltəraşlıq məktəbinin yaranmasından bir əsrdən çox müddət keçir. Azərbaycanın tişə ustalarının yaradıcılığı nəinki Azərbaycanda hətta xarici ölkələrdə də tanınır və qiymətləndirilir.

Bu gün biz heykəltəraşlarımızın monumental, fiqurlu plastika və portret janrında işlədikləri əsərlərin yeni keyfiyyətlərindən cəsarətlə söhbət aça bilərik.

Milli xarakterin canlı cizgiləri, onun bənzərsizliyi, özünəməxsusluğu, müasirlərimizin obrazları heykəltəraşlarımızın əsərlərində öz əksini tapır.

Azərbaycan heykəltəraşlığı indi yeni xüsusiyyətlərə malik, müxtəlif sahələri əhatə edən, müxtəlif istiqamətli yaradıcılıq növü olan bir sənət məktəbidir. Bu məktəb əsasən Sovet hakimiyyəti illərində yetginləşsə də, onun yaranmasını milli adətlərimizdən, xalq ənənələrindən ayrı təsəvvür etmək olmaz. O, daim Azərbaycan el sənətindən qidalanmış, dekorativ sənətimizlə daş, ağac və dəmir üzərində əsərlərdən bəri yaranmış ornament sənətimizin zəngin irsi ilə sıx əlaqədə inkişaf etmişdir.

Öz lakonikliyi və ifadə tərzi ilə insanı heyran edən Qobustan qayaüstü rəsmləri, bu yaxınlarda Şüvəlan qəsəbəsində aparılan qazıntılar zamanı aşkar edilmiş təsvirlər, köhnə qəbir daşları üzərində həkk olunmuş qoyun, at və s. fiqurlar, XII əsr Bayıl daşları. Bütün bunlar onu göstərir ki, islam dini canlıları təsvir etməyi günah saysa da, xalq yaradıcılarının əl qolunu bağlasa da, bütünlüklə xalqımızın yaradıcı duhasının qarşısını ala bilməmişdir. Qayalarda, ağac və dəmir üzərində əks olunmuş müxtəlif biçimli heyvan və insan fiqurları neçə neçə əsrlərdən bu günümüzə qədər gəlib çatmışdır.

İndi respublikamızda forma və janr etibarı ilə rəngarəng, zəngin bir heykəltəraşlıq məktəbinin yaranmasında üsulu əl sənətimizin, əsrlərdən bəri daşlar üzərində dönüb qalmış müxtəlif biçimli təsvirləri yaradan müdrik babalarımızın rolunu da inkar etmək olmaz.

1920-ci illərdən respublikamızın şəhərlərinin memarlıq baxımından formalaşmasında böyük əhəmiyyətə malik olan monumental heykəltəraşlığın plastik sənətdə aparıcı rolu təyin olunur. 20-ci illərin sonundan etibarən plastik sənətinin nümayəndələrindən olan P.V.Sabsayın işləri diqqəti daha çox cəlb edir. Böyük mütəfəkkir M.F.Axundovun (1930-cu il) heykəllərini yaratmaqla P.Vsabsay tez bir zamanda ölkəmizdə məşhurlaşır.

M.F.Axundova həsr edilmiş monumental fiqurla postament arasındakı dəqiq nisbət, heykəlin yerləşdiyi kiçik bağça ilə uyarlıq, memarlıq baxımından müvəffəqiyyətlə həll edilmişdir.

30-cu illərin axırlarından etibarən heykəltəraşlıqda respublikamızın milli kadrları da bir sıra müvəffəqiyyətlərə nail olur. Cəlal Qaryağdı və Fuad Əbdürrəhmanovun adları plastik

DOI:10.30546/gdu.2023.307-311

sənət ustalarının sırasında çəkilir. Onların yaradıcılığı Azərbaycan heykəltəraşlığının ümumi inkişafına bir sıra mühüm xüsusiyyətlər gətirir.

Bakı şəhərindəki Nizami adına muzeyin binası heykəltəraşlıqla memarlığın sintezinə gözəl nümunədir. Burada tətbiq olunan milli memarlıq elementləri və mayolika ornamentləri binanın xarici görnüşünə zəriflik verir.

Respublikamızın paytaxtını, eyni zamanda Gəncə, Şəki, Sumqayıt, Quba, Xankəndi, Mingəçevir şəhərlərini daha yaraşıqlı qurmaq, memarlıq ansamblları ilə heykəltəraşlığı sintezdə verə bilmək üçün də az təşəbbüs göstərilməyib.

Böyük Nizaminin vətəni Gəncənin mərkəzində şairə qoyulmuş abidə şəhərin ən baxımlı ansambllarından biridir (memar S.Dadaşov və M.Hüseynov, 1947-ci il). Heykəlin plastik quruluşu obrazın poetikliyini daha da artırır.

Nizaminin Bakıda ucaldılan heykəli də bu baxımdan respublikamızda heykəltəraşlığın inkişafında irəliyə doğru bir addımdır (memar S.Dadaşov və M.Hüseynov, 1949-cu il). Hələ müharibə illərindən əvvəl hazırlanmağa başlanmış və hündür bir meydanda qoyulmuş bu abidə sahənin bütün ansamblını tamamlayır. Bu meydan hündürlüyü ilə ətraf sahələrdən seçildiyinə görə şairin əzəmətli heykəli meydanı bürümüş yaşılığın fonunda hər tərəfdən görünür. Abidə ilə meydanın uyarlığı, heytəraşlıqla memarlığın müvəffəqiyyətli sintezinin ən gözəl təcəssümüdür.

Qeyd edilən bu əsərlərdə Azərbaycan monumental plastik sənətinin özünəməxsus xüsusiyyəti xeyli aydın nəzərə çarpır.

Azərbaycan Elmlər Akademiyasının binasından "Gənclər" meydanına qədər yaşıllığa bürünmüş böyük bir sahə Nizami meydanının yaşıl kompleksi ilə üzvü sürətdə birləşmişdir.

Bu yaşıllığın yuxarı hissəsində görkəmli satirik şair M.Ə.Sabirin heykəli ucalır (heykəltəraş C.Qaryağdı, Memar Ə.İsmayılov və Q.Əlizadə, 1958-ci il). Hər iki sahə dərin düşünülmüş, gözəl bir memarlıq ansamblıdır.

Fuad Əbdürrəhmanovun "Azadlıq" monumenti də (memar M.Hüseynov, 1960-cı il) respublika heykəltəraşlıq məktəbinin irəliyə doğru müvəffəqiyyətli addımı sayıla bilər. Qətiyyətlə çadrasını atan qadın fiqurunun hündür, düzbucaqlı postament üzərində yerləşdirilməsi əsəri daha dinamik, daha canlı edir. Əsil xəlqilik, millilik ruhunda yaradılmış bu monimentin milli boyaları, keyfiyyətləri təsviri dildən çox, bədii məzmununda hiss olunur.

Azərbaycan monumental plastik sənətində yaradıcı üslubun müxtəlifliyi, rəngarəngliyi 50-60-cı illərdə xüsusilə hiss olunur. Bu illərdə monumental heykəltəraşlıqda bir sıra problemlərin həllinə təzə, əhəmiyyətli, yeniliklər gətirən orta yaşlı nəslimizin istedadlı heykəltəraşlarından, Moskva və Leninqradın ali məktəblərində təhsil almış T.Məmmədov, Ö.Eldarov, H.Abdullayeva, E.Hüseynova, M.Mirqasımov, K.Ələkbərov, E.Şamilov xüsusilə seçilirlər. Bu sənətkarların yaratdıqları əsərlərdə heykəltəraşlığın ümumi inkişafı üçün xarakterik olan bədii axtarışlar hiss olunur. Bu əsərlər həm də ciddi estetik və tərbiyəvi əhəmiyyət kəsb edir.

Dahi bəstəkar Üzeyir Hacıbəyovun Azərbaycan Dövlət Konservatoriyasının binası qarşısında qoyulmuş abidəsi 60-cı illərin ən görkəmli işlərindəndir (heykəltəraş T.Məmmədov, memar H.Muxtarov, memar H.Muxtarov, 1960-cı il).Əsərə baxarkən diqqəti ilkin cəlb edən şey, plastik ritimlərin dəqiqliyi, bir birinə uyğun olmasıdır. Azacıq irəli əyilmiş, sanki musiqi səslərinə qulaq asan bəstəkarın psixoloji vəziyyətinə münasib bir formanın seçilməsi heykəltəraşın müvəffəqiyyətidir.

XIX əsr Azərbaycan şairi Xurşid Banu Nətavana həsr olunmuş abidə də (heykəltəraş Ö.Eldarov, memar F.Leontiyeva, 1960-cı il) obrazın bədii həllinin poetikliyi ilə şairin daxili aləmi, onun xeyirxah xarakteri sanki qaynayıb qarışır.

DOI:10.30546/gdu.2023.307-311

Son vaxtlar respublikamızda dekorativ heykəltəraşlığın köməyilə eksteryer, eləcə də interyerlərin həcm fəza həllinə xüsusi fikir verilir.

Dekorativ heykəltəraşlığın incə və bacarıqlı həlli, onun təbiətlə uyğun təsviri Bəhram Kürün simvolik fiquru təsvir edilmiş dekorativ fəvvarədə müvəffəqiyyətlə verilir (heykəltəraş Q.Sücəddinov, A.Mustafayev, A.Rüstəmov, 1958-ci il.)

Respublikanın heykəltəraşlığında heykəl büstlərin də özünəməxsus inkişaf ənənələri var. Bu qəbildən olan heykəllərdə quruluşu ilə birlikdə abidənin yerləşdiyi ətraf da böyük əhəmiyyətə malikdir.

Həlli müvəffəqiyyətlə icra olunmuş büst heykəllər içərisində tank qoşunları general mayoru Həzi Aslanovun Dağüstü parkda qoyulmuş abidəsi (memar L.Qonsiorovski, heykəltəraş F.Əbdürrəhmanov, 1948-ci il), görkəmli Azərbaycan şairi Abbas Səhhətin büstü (heykəltəraş H.Əhmədov, memar D.Axundov, Gəncə 1952-ci il), Nəriman Nərimanovun abidəsi (heykəltəraş M.Mirqasımov, memar Ə.İsmayılov, F.Leontiyeva, Sumqayıt, 1964-cü il) seçilir.

Hazırda respublikamızın bir çox şəhər və kəndini monumental büstlər bəzəyir. Bu tipli abidələrin əhəmiyyəti, hər şeydən əvvəl, onların həyat məndərəcəsinə malik olmasıdır.

Azərbaycan tişə sənətində memarlıqla heykəltəraşlığın sintezinə aid də bir çox maraqlı və əhəmiyyətli əsərlər yaranmışdır. Bu baxımdan Qazax rayonunun Şıxlı kəndində böyük şair Vidadinin abidəsi xüsusilə qeyd edilməlidir. Abidənin müəllifləri (heykəltəraş E.Şamilov, memar T.Abdullayev və Y.Qədimov, 1966-cı il) obrazın həllində milli xalq ənənələrindən çıxış etməyə çalışmışlar.

Belə ki, burada Azərbaycanın məzarüstü abidələrinə xas olan ornamental bəzək və hərflərin köməyilə yaranan naxışlardan geniş istifadə edilmişdir. Budur, qocaman sənətkar gözlərini bir qədər yumaraq sanki arzu və xəyallar dünyasına dalmışdır. Abidənin dərinemosional təsiri sanki Vidadinin şer aləmi ilə qırılmaz bir vəhdət təşkil edir.

Dinamizm və obrazın mürəkkəb psixologiyasının qabarıq təsviri C.Cabbarlının memarlıq abidəsinə (heykəltəraş E.Hüseynova, memar Y.Qədimov, 1969-cu il) xas olan başlıca keyfiyyətlərdəndir.

Heykəltəraşlarımızdan F.Əbdürrəhmanov, C.Qaryağdı, T.Məmmədov, Ö.Eldarov, K.Ələkbərov, H.Abdullayeva, M.Rzayeva, S.Əliverdiyeva və başqaları memorial abidə sahəsində ardıcıl fəaliyyət göstərirlər.

Tişə sənətimizdə dəzgah kompozisiyası və fiqurlu plastika sahəsində də böyük nailiyyətlər əldə edilmişdir. Bu baxımdan istedadlı sənətkarımız Fuad Əbdürrəhmanovun "Çoban" (1950-ci il) və "Azərbaycan qadını" (1951-ci il) heykəlləri parlaq milli koloriti ilə nəzəri cəlb edir. Plastik biçimlərin dəqiqliyi və geniş mənada dərinliyinə malik olan "Çoban" abidəsi üçün F.Əbdürrəhmanov 1951-ci ildə Dövlət mükafatına layiq görülmüşdür. Hazırda bu heykəl Tretyakov Dövlət qaleriyasının daimi ekspozisiyasına daxil edilmişdir. Dəzgah kompozisiyası sahəsində də tişə ustalarımız müasirlərimizin dərindən düşünülmüş, ümumiləşdirilmiş obrazlarını yaratmışlar. Kompozisiyanın düzgün həlli, materialından ustalıqla istifadə olunması, əsas detalların düzgün seçimi, mövzu və ideyanın uğurlu həlli T.Məmmədovun, Ö.Eldarovun, M.Mirqasımovun, H.Abdullayevanın əsərlərinə aid gözəl cəhətlərdir. Azərbaycan monumental heykəltəraşlığının və fiqurlu plastika sənətinin ümumi yüksəlişi portret heykəltəraşlığının əsas problem və ənənələrilə qırılmaz surətdə əlaqədardır.

Mövzunun uğurlu tapılması, obrazın psixoloji həlli üçün əsas momentlərin düzgün seçilməsi, qəhrəmanın daxili aləminin açılması üçün göstərilən cəhdlər portretci heykəltəraşlarımızın yaradıcılığında başlıca cəhətdir. Böyük Vətən müharibəsi qəhrəmanlarına, onların psixologiyasına, intellekt və xarakter xüsusiyyətlərinə sənətkarlarımız həmişə yüksək maraq göstərmişlər. Çünki məhz o ağır imtahan illərində

DOI:10.30546/gdu.2023.307-311

adamların kütləvi qəhrəmanlığı, yüksək mənəvi keyfiyyətləri özünü daha aydın biruzə verdi. Odur ki, bu dövrdə bütün təsviri sənət xadimləri kimi heykəltəraşlarımız da qəhrəmanlıq portreti probleminin həllinə çalışırdılar.

İndi heykəltəraşlarımızın yaradıcılığında insanın fərdi keyfiyyətlərinin dərindən və hərtərəfli açılmasına göstərilən meyl bütün aydınlığı ilə hiss olunur.

F.Əbdürrəhmanovun 50-60-cı illərdə yaratdığı əsərlərdəki portret xarakteristikası dərin məna və bədii ifadəliyi ilə nəzəri cəlb edir.

Plastik obrazın ümumləşdirilməsi və məna dərinliyi F.Əbdürrəhmanov yaradıcılığını istiqamətləndirən əsas amillərdir.

Portret probleminin həllində Cəlal Qaryağdı da böyük naliyyətlər əldə etmişdir. İfadə tərzinin dəqiqliyi, obrazların psixoloji təsviri, əla həcmqurma qabiliyyəti onun yaradıcılığını başqalarından fərqləndirir. M.Ə.Sabirin (1964-cü il), bəstəkar C.Cahangirovun (1964-cü il) portreti, habelə “Kamançaçı”, “Tarçalan” və “Gənc xanəndə” (1965-ci il) kimi ümumiləş dirilmiş portret tipləri çox maraqlı əsərlərdəndir.

Müharibədən sonra bütün qüvvəsini portret janrına həsr etmiş sənətkarlardan biri də aramızdan vaxtsız getmiş Hüseyn Əhmədov idi. Onun “Qafur Məmmədov” (1946-cı il), “Şamama Həsənova” (1948-ci il), “Müleyli Məmmədova” (1947-ci il) portretləri psixoloji həlli, lakonizmi, habelə milli xarakterik cizgiləri ilə nəzəri cəlb edir.

T.Məmmədovun yaradıcılığındakı böyük həyat həqiqəti, habelə fikir və duyğuların obrazlı həlli, Ö.Eldarovun portretlərindəki yüksək ekspressiya və güclü plastika, E.Hüseynovanın işlərinə xas olan möhkəm konstruktiv aydınlıq, nəhayət F.Nəcəfovun əsərlərindəki monumentallıq Azərbaycan heykəltəraşlığının portret janrında yaranan yeni müvəffəqiyyətli ənənələrin gözəl təzahürüdür.

İnsanın mürəkkəb mənəvi aləminin formalaşması prosesi indi tişə ustalarımız üçün ciddi maraq obyektinə çevrilmişdir.

T.Məmmədovun “Bəstəkar Niyazinin portreti” (1967-ci il), Ö.Eldarovun “Rəssam S.Bəhlulzadə” (1968-ci il), E.Hüseynovanın “Ailə” (1968-ci il) və H.Abdullayevanın yüksək lirizmlə aşılanmış “Vəcihə Səmədova” (1970-ci il) əsəri son zamanlarda portret heykəltəraşlığı sahəsində yaranmış fərəhli yeniliklərdəndir.

Geniş ümumiləşdirməyə meyl M.Mirqasımov yaradıcılığında başlıca cəhətdir. Bu xüsusiyyət onun “Qız göyərçin ilə” (1958-ci il) və “Ana” portreti (1965-ci il) əsərlərində daha qabarıq şəkildə nəzərə çarpır. Son zamanlarda böyük yaradıcılıq nailiyyətləri qazanmış sənətkarlarımızdan biri də K.Ələkbərovdur. Onun əsərlərinə xas olan kameralıq və ifadə tərzinin yekdilliyi tamaşaçıları hər şeydən əvvəl, dərin düşüncələrə daldırır. İstər Q.Musabəyovun portretində (1970-ci il), istərsə də xatirə kompleksinin bir hissəsi olan “Qəhrəmanlar anası” adlı kompozisiyada sənətkar qarşısına müəyyən plastik məsələlər qoymuş və onların uğurlu həllinə nail olmuşdur.

Heykəltəraşlarımız öz qüvvələrini kiçik janrlı plastika sahəsində də sınayırlar. Belə səpgidə yaranmış əsərlər içərisində E.Aslanovun mis və bürüncdən hazırladığı “Çoban”, “Rəqs”, “Döyüşçü” (1964-cü il) kimi uğurlu işlərini xüsusilə qeyd etməliyik. İstər icrasının, istərsə də ifadə tərzinin yeniliyilə Ə.Əliyevanın və H.Musayevin işləri də nəzəri cəlb edir. Azərbaycan heykəltəraşlığı istedadlı sənətkarları ilə məşhurdur. Bu baxımdan son zamanlarda respublika sərgilərində fəal iştirak edən gənclərdən A.Qazıyevin, F.Bakıxanovun, S.Zakirinin, K.Rzayevin, A.Rüstəmovun, A.Mirzəyevin, H.Musayevin, M.Rüstəmovun, A.Kasparovun, V.Rəhmanovun yaradıcılığı ümid və fərəh doğurur.

İnsanın mənəvi aləminin, duyğu və düşüncələrinin ciddi və dərindən öyrənilməsi tişə ustalarımızın yaradıcılığına xas olan gözəl cəhətlərdəndir. Onların axtarışlarındakı fikir

DOI:10.30546/gdu.2023.307-311

dərinliyi, yüksək emosiya, cəsarət və orijinallıq tişə sənətimizin bütün janrlarını nəinki təzə mövzularla, həm də yeni ifadə vasitələrilə zənginləşdirmişdir.

İndi respublikamızda forma və janr etibarı ilə rəngarəng, zəngin bir heykəltəraşlıq məktəbinin yaranmasında üsulu əl sənətimizin, əsrlərdən bəri daşlar üzərində dönüb qalmış müxtəlif biçimli təsvirləri yaradan müdrik babalarımızın rolunu da inkar etmək olmaz.

***Ədəbiyyat***

1. Ç.Novruzova. "Sovet Azərbaycanın heykəltaraşlığı" Bakı, 1973
2. G.A.Qacar., Ömər Eldarov. Bakı, 2005
3. Kərimov K.Ç., Əfəndiyev R.S., Rzayev N.İ., Həbibov N.D. "Azərbaycan incəsənəti" Bakı, 1992
4. R.Əfəndiyev., M.Nəcəfov., M.Tərlanov. "Təsviri incəsənət". Bakı, 1962
5. Nurəddin Həbibov. "Təsviri sənət haqqında". Bakı, 1967
6. Н.Н.Ростовциев. «Академический рисунок». Москва. 1973
7. Елсевская. «Искусства рисунки» Москва, 1990

## ОРГАНИЗАЦИЯ СКУЛЬПТУРНОГО ИСКУССТВА В АЗЕРБАЙДЖАНЕ

***Аллахвердиева Разия Гияс кызы***

***Резюме***

Азербайджанская скульптура в настоящее время представляет собой художественную школу с новыми чертами, охватывающую различные области, творческий тип различных направлений. Хотя эта школа сложилась в основном в годы советской власти, ее создание невозможно представить в отрыве от наших национальных обычаев и народных традиций. Оно постоянно питалось азербайджанскими ремеслами и развивалось в тесной связи с нашим декоративно-прикладным искусством и богатым наследием нашего орнаментального искусства, созданного со времен работ по камню, дереву и железу.

Нельзя отрицать роль наших методичных рукоделий и наших мудрых дедов, создававших разнообразные фигурные изображения, веками высекаемые на камнях, в создании колоритной и богатой школы скульптуры в нашей республике.

## ORGANIZATION OF SCULPTURAL ART IN AZERBAIJAN

***Allahverdiyeva Raziyyə Qiyas qızı***

***Summary***

Azerbaijani sculpture is currently an art school with new features, covering various areas, creative types of various directions. Although this school was formed mainly during the years of Soviet power, its creation cannot be imagined in isolation from our national customs and folk traditions. It was constantly nourished by Azerbaijani crafts and developed in close connection with our arts and crafts and the rich heritage of our ornamental art, created since the time of stone, wood and iron work.

It is impossible to deny the role of our methodical handicrafts and our wise grandfathers, who created various figurative images, carved on stones for centuries, in the creation of a colorful and rich school of sculpture in our republic.

***Rəyçi: Əbülfət Məhərrəmov***
***Təsviri incəsənət kafedrasının 14 iyun 2023-cü il tarixli iclasın 08 saylı protokolu***
***Daxil olma tarix 19 iyun 2023-cü il***